
Oğrular cinayəti törətmiş şəxslər öz psixoloji xüsusiyyətlərinə görə fərqlənirlər. Onlar daha az impulsiv olur, müxtəlif sosial təbəqələrə tez uyğunlaşmağı bacarır, müxtəlif vəziyyətlərdə daha az həyəcanlanır və öz emosiyalarını ustalıqla gizlədə bilirlər. Aqressivlik onlara xas olan keyfiyyət deyil və ünsiyyət yaratmağa daha çox meyllidirlər.

Zorakı-tamah cinayətləri (soyğunçuluq, quldurluq) törətmiş şəxslərə isə impulsivlik, özünənəzarətin aşağı olması və s. aqressiv xüsusiyyətlər xasdır. Ölkəmizdə soyğunçuluq və quldurluq cinayətlərinin əksəriyyəti 18-24 və 25-29 yaşlarında olan şəxslərin payına düşür.


*Mülkiyyət əleyhinə cinayət törətmiş şəxslərin tipləri*
Situativ
Tamahkar
Konformist
Özünütəsdiqedən
Patoloji
Romantik
Üsyankar

### *§ 3. Mülkiyyət əleyhinə törədilən  cinayətlərin əsas səbəbləri və profilaktikası*

***Mülkiyyət əleyhinə törədilən  cinayətlərin əsas səbəbləri :***

- İqtisadi krizis və işsizlik
- Kriminal düşüncə tərzinin təbliği
- Residiv cinayətlərin inkişafına təkan verən cəza siyasəti.
- Sosial nəzarət mexanizmlrərinin inkişaf etdirilməməsi.
- Hüquq mədəniyyətinin aşağı səviyyədə olması.

***Mülkiyyət əleyhinə törədilən cinayətlərin profilaktikası tədbirləri:***

- İqtisadi
- Siyasi
- Hüquqi
- Təşkilati
- Mədəni-tərbiyəvi

## MÖVZU 10.

## «Zorakı cinayətkarlıq və onun profilaktikası»

### *§ 1. Zorakı cinayətkarlığın kriminoloji xüsusiyyətləri*

***Zorakılığın növləri :***

- Fiziki zorakılıq
- Psixi zorakılıq
- "İnstrumental" zorakılıq
- Məişət zorakılığı.
- Mənəvi zorakılıq.
- Silahla müşayiət olunan zorakılıq (soyuq və ya odlu silah)
- Siyasi zorakılıq
- Mülki zorakılıq (tamah məqsədi olmadan başqasının əmlakını məhv etmə).
- Ailə zorakılığı və s.

Statistik göstəricilərə əsasən ümumi cinayətlərin strukturunda qəsdən adam öldürmə cinayətləri təqribən 1,4-1,9 %, sağlamlığa ağır zərər vurma 1,6 -2,1 %, zorlama 0,3-0,4 %, xuliqanlıq 6,7-9 % təşkil edir.

***Zorakı cinayətkarlığın nöləri:***

- **aqressiv-zorakı cinayət-karlıq** (Zorakılıq kriminal motivasiyanın tərkib elementi kimi çıxış edir. Bu zaman kriminal qəsdin əsas obyekti şəxsin həyatı və ya sağlamlığı olur)
- **rasional-zorakı cinayət-karlıq** (Zorakılıq kriminal məqsədə çatmaq üçün əsas vasitə qismində çıxış edir).

**Zorakı cinayətlərin dinamikasına təsir edən neqativ faktorlar :**

- cinayət etməyə cəhdlə müqayisədə bitmiş cinayətlərin sayının artması
- zorakı cinayətlərin artması müşahidə olunan regionlarda ağırlaşdırıcı hallarda adam öldürmə cinayətlərinin payının artması
- adam öldürmə cinayətlərinin daha ictimai təhlükəli növlərinin, xüsusilə də, odlu silahın tətbiqi ilə törədilən adam öldürmə cinayətlərinin kəmiyyətinin artması
- insanların həyat və səhhəti əleyhinə qrup halında cinayətkar qəsdlərin artması
- zorakı cinayətlərin residivinin artması
- zorakılıqla bağlı cinayətlərin peşəkar cinayətkarlar tərəfindən törədilməsi (sifarişli qətllər);
- xüsusi amansızlıqla törədilən zorakı cinayətlərin sayının artması.

## *§ 2. Zorakı cinayətkarların şəxsiyyətinin kriminoloji xüsusiyyətləri*

*Zorakı cinayətkarların tipləri :*

**Rasional tip** (Öz problemlərini yalnız güc yolu ilə həll edir). Bu tipə mənsub olan cinayətkarlar əsasən tamah, seksual ehtiyacların ödənilməsi və s. motivlərlə bağlı cinayətlər törədirlər

**İmpulsiv tip** (Cinayətləri əsasən qisas və qısqanclıq motivi ilə bağlı törədirlər)

**Patoloji tip** (Zorakılıqla onlar öz daxilində mənəvi rahatlıq tapır.Bu tipə mənsub olan şəxslər çox vaxt əvvəllər zorakı təsirə məruz qalmış şəxslər olurlar)

**Konformist tip** (Müəyyən təsir altında cinayət törətmiş şəxslər)


*Ailə münaqişəsi zəminində cinayət törədənlərin tipləri:*
Aktiv kriminal tip
Kriminal tip
Marginal tip
Situativ tip

## *§ 3. Zorakı cinayətlərin səbəbləri və xəbərdar edilməsinin əsas istiqamətləri*



## *Zorakı cinayətkarlığın profilaktikası:*

- Aparılan islahatların milli-mənəvi dəyərlərə əsaslanaraq istiqamətləndirilməsi
- Ailəyə qarşı qayğı və diqqətin artırılması
- Təhsil müəssisələrində tərbiyə sisteminin təkmilləşdirilməsi
- Asudə vaxtın düzgün təşkili
- Sağlam həyat tərzinin təbliği
- Hüquqi təbliğat və hüquqi tərbiyə sisteminin daha ahəngdar işləməsi
- Viktimoloji profilaktikanın tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi
- Qanunsuz silah dövriyyəsinin qarşısının alınması
- HMO-nun fəaliyyətinin təkmilləşdirilməsi

# MÖVZU 11.
# «İqtisadi cinayətkarlıq və onun profilaktikası»

## *§ 1. İqtisadi cinayətkarlığın kriminoloji xüsusiyyətləri*



***Ağyaxalıqlı cinayətkarlığın növləri(Qrin):***

- **Təşkilati** (Korporativ)- vergi sənədlərinin saxtalaşdırılması.
- **Peşəkar** - vəkillər, həkimlər, psixoloqlar, müəllimlər və s.
- **Vəzifədən suiistifadə etməklə törədilən cinayətlər -** HMO əməkdaşının rüşvət alması
- **Fərdi** – fəhlənin iş yerindən hər hansı bir detalı oğurlaması.

***İqtisadi cinayətkarlığın kriminoloji xüsusiyyətləri :***

İqtisadi cinayətkarlığın latentliyi yüksəkdir

İqtisadi cinayətkarlığın cəmiyyətə vurduğu zərərin məbləği olduqca böyükdür

İqtisadi cinayətkarlıq digər cinayətkarlığa nisbətən əhalinin böyük hissəsini əhatə edir

İqtisadi cinayətkarlıq mütəşəkkil xarakter daşıyır

## *İqtisadi fəaliyyət sahəsində cinayət törətmiş şəxslərin tipləri:*

**“Brilliant yaxalıqlar”-** dövlətin siyasi və iqtisadi elitasını təmsil edən şəxslər.

**“Qızıl yaxalıqlar”-** nazirliklərdə, bank sistemərində inzibati-təsərrüfat və inzibati-sərəncamverici funksiyaları (bürokratik elita), həmçinin iri kommersiya və digər təşkilatlarda inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər.

**“Gümüş yaxalıqlar”-** dövlətin vəzifəli şəxsləri, orta təbəqəli kommersiya təşkilatlarının rəhbərləri, sahibkarlar elitası, maliyyə-kredit və bank sisteminin nümayəndələri

**“Ağ yaxalıqlar”-** dövlət və bələdiyyə orqanlarının nümayəndələri, orta təbəqəli idarəetmə aparatlarının əməkdaşları, ayrı-ayrı regionlarda yerləşən müəssisə və təşkilatların rəhbərləri.

### § 2. *İqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərin səbəb və şəraiti*

***Ümumsosial səviyyədə iqtisadi cinayətkarlığın səbəbləri :***

- Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq elmi cəhətdən əsaslandırılmış iqtisadi tədqiqatların aparılmaması
- Bazar münasibətlərinin həyata keçirilmə mexanizminin olmaması
- Keçid dövründə iqtisadi münasibətlərin nizamlanması üçün nəzərdə tutulmuş qanunların yetkin səviyyədə olmaması
- Sahibkarlıq fəaliyyətini kölgəli iqtisadiyyata sürükləyən vergi siyasəti
- Dövlətin sahibkarlığın ədalətli inkişafına hazır olmaması
- Dövlət tərəfindən iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı vahid mübarizə strategiyasının hazırlanmaması
- Əhalinin varlanmasının əsas mənbəyinin kriminal fəaliyyətin olması

## *§ 3. İqtisadi cinayətlərin profilaktikası*

***İqtisadi cinayətkarlığa qarşı tətbiq ediləcək profilaktik tədbirlərin istiqamətləri :***

- Özəlləşdirmə və sosial nəzarət arasında tarazlığın təmin edilməsi
- Əhalinin ehtiyac içərisində yaşayan aztəminatlı təbəqəsinə dövlət tərəfindən sosial yardımın göstərilməsi
- Ölkədə siyasi və iqtisadi stabilliyin təmin olunması
- Sosial münasibətlərin və qanunvericiliyin təkmilləşdirilməsi
- Hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi

**Sosial nəzarətin əsas vəzifələri :**

↓

maddi vəsaitlərin qanunsuz yolla əldə olunmasının qarşısının alınması

↓

qanunsuz yolla əldə olunmuş maddi vəsaitlərin istifadəsinə yol verilməməsi

**Hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi:**

↓

onların müasir texniki vəsaitlərlə təmin olunması

↓

kadrların hazırlığının yüksəldilməsi

# MÖVZU 12.

## «Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin kriminoloji xüsusiyyətləri və profilaktikası»

### *§ 1. Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin kriminoloji xüsusiyyətləri*

Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlər bütün xətlər üzrə törədilmiş cinayətlərin 3-5 %-ni təşkil edir.

Yetkinlik yaşına çatmayanlar tərəfindən cinayətlərin əksəriyyəti qrup halında törədilir (60-70 %).

Yetkinlik yaşına çatmayanlardan ibarət cinayətkar qrupun tərkibi təqribən 3-5  nəfər arasında olur.

**YYÇ tərəfindən törədilən cinayətlərin səciyyəvi xüsusiyyətləri:**

↓

Mülkiyyət əleyhinə olan cinayətlərin törədilməsinə üstünlük verilməsi

↓

Cinayətlərin daha çox qrup halında törədilməsi

**Yetkinlik yaşına çatmayanlardan ibarət cinayətkar qrupların üzvlərinin davranışlarının xüsusiyyətlərinə görə növləri:**

Təsadüfi qruplar

Retristik qruplar

Cinayətkar qruplar


Yetkinlik yaşına çatmayanlardan ibarət cinayətkar qrupların növləri:
Cinayətkar qruplar
Aktiv-kriminal qruplar
Passiv-kriminal qruplar
Kriminogen qruplar
Situativ qruplar

**Cinayətkar qruplar:**

↓

mütəşəkkillik

↓

qrupda əvvəllər məhkum olmuş şəxsin olması

↓

qrupun üzvlərinin şəxsiyyətinin əks sosial istiqamətdə formalaşması

↓

zorakı cinayətlərin törədilməsinə üstünlük verilməsi (şəxsiyyət əleyhinə törədilən cinayətlər, quldurluq, soyğunçuluq və s.).

**Aktiv-kriminal qruplar**

↓

mütəşəkkillik zəif formada özünü biruzə verir

↓

dayanıqlı və uzunmüddətli münasibətər yoxdur

↓

qrupda əvvəllər məhkum olunmuş şəxslər iştirak edirlər

↓

qrupun üzvlərinin şəxsiyyəti əkssosial istiqamətdə formalaşmışdır

↓

törədilən cinayətlərdə zorakılığın əlamətləri müşahidə oluna bilər, lakin daha çox mülkiyyət əleyhinə törədilən cinayətlərə üstünlük verilir (quldurluq, soyğunçuluq, oğurluq və s.).

**Passiv-kriminal qruplar**

↓

qrupun tərkibində DİO tərəfindən profilaktik uçotda olan şəxslərin olması

↓

daxili qaydaları vardır

↓

qrupun üzvlərinin şəxsiyyətinin pozitiv komponentləri mövcuddur. Lakin şəxsiyyətin neqativ istiqamədə formalaşmasına təkan verən neqativ komponentlər üstünlük təşkil edir

↓

daha çox ictimai qaydanın pozulması ilə əlaqədər hüquqpozmalar törədilir (xuliqanlıq)


**Kriminogen qruplar**
qrupun üzvlərinin şəxsiyyətini formalaşdıran pozitiv və neqativ komponentlərin səviyyəsi bərabərdir
daxili qaydalar mövcuddur
yaranmış şəraitdən asılı olaraq hüquqpozmalar törədilir

**Situativ qruplar**

qrupun üzvlərinin şəxsiyyətini formalaşdıran komponentlər sabit deyil, davranışların istiqamətlərinin seçilməsində qeyrimüəyyənlik var

qrupda birlik, mütəşəkkillik, daxili qaydalar yoxdur

belə qruplar əvvəlcədən yaradılmır, hər hansı bir şəraitin təsiri nəticəsində yaranaraq (asudə vaxtın birlikdə keçirilməsi, əyləncə axtarışı məqsədi ilə), tez bir zamanda da dağılır.

## *§ 2. Cinayət törətmiş yetkinlik yaşına çatmayanların şəxsiyyətlərinin kriminoloji xüsusiyyətləri*

**Cinayətlərin törədilməsində motivin xarakterinə görə yetkinlik yaşına çatmayan cinayətkarların tipləri :**

↓

Asudə vaxtını daha şən keçirmək məqsədilə cinayət törədən şəxslər

↓

Öz yaşıdlarının təsiri altında, onlar arasında nüfuz qazanmaq üçün cinayət törədən şəxslər

↓

Yetkinlik yaşına çatmış şəxslərin təsiri altında cinayət törədən şəxslər

↓

Ehtiyacın təsiri altında cinayət törədən şəxslər

**Yetkinlik yaşına çatmayanların cinayətkarlığının neqativ meylləri:**

↓

Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin digər sahələr üzrə qeydə alınmış cinayətlərə nisbətən daha intensiv artması

↓

Bütün xətlər üzrə qeydə alınmış cinayətlərin strukturunda yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən ağır cinayətlərin sayının çoxalması

↓

Yetkinlik yaşına çatmayanlar tərəfindən odlu və ya soyuq silah, nəqliyyat vasitələrindən istifadə edilməklə və törədilən cinayətlərin artması

↓

Narkotiklərlə bağlı törədilən cinayətlərdə yetkinlik yaşına çatmayanların iştirakı

↓

Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin daha mütəşəkkil xarakter alması

## *§ 3. Yetkinlik yaşına çatmayanların cinayətkarlığının profilaktikası*

**Yetkinlik yaşına çatmayanların cinayətkarlığına qarşı təsir tədbirlərinə aşağıdakılar aiddir:**

↓

ailəin, YYÇ-ın və gənclərin sosial və maddi şəraiti ilə bağlı qanunvericilik bazasının yaradılması

↓

YYÇ-ın cinayətkarlığının profilaktikası funksiyasını həyata keçirən dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi

↓

YYÇ-ın asudə vaxtının təşkili sahəsində həyata keçiriləcək tədbirlərin effektivliyinin artırılması

↓

YYÇ-ın və gənclərin hüquqi və hərbi-siyasi tərbiyəsinin təşkili

↓

YYÇ-ın işləri üzrə məhkəmə təcrübəsinin təkmilləşdirilməsi

↓

YYÇ-ın fiziki və psixi qüsurları ilə bağlı xəstəliklərinin profilaktikası

↓

ailəyə və uşaqlara sosial, iqtisadi və digər zəruri köməyin göstərilməsi üzrə dövlət proqramlarının hazırlanması

↓

Sosial işçi institutunun yaradılması

**YYÇ tərəfindən törədilən cinayətlərin profilaktikasının beynəlxalq əsasları (BMT-nin Ər-Riyad Aparıcı Təlimatları)**

Ailə

Təhsil

İcma

Kütləvi informasiya vasitələri

Sosial siyasət

Qanunverijilik və ədalət mühakiməsi

Koordinasiya

## MÖVZU 13.

## «Narkotik vasitələrlə bağlı cinayətlər və onların profilaktikası»

### *§ 1. Narkotik vasitələrlə bağlı cinayətlərin anlayışı və kriminoloji xüsusiyyətləri*

**Narkotik vasitələrlə bağlı cinayətlər** – narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə əlaqədar yaranan ictimai münasibətlərə qəsd edən cinayətlərin cəmidir.

Narkotik vasitələrlə bağlı cinayətlər qlobal xarakter daşıdığından dünyanın bir neçə ölkələrini əhatə edir. Onlar **istehsalçı, istehlakçı, tranzit** ölkələrinə bölünməklə qruplaşdırılır.

**Naroktik vasitələrin daşınmasının aşağıdakı marşrutları :**

Əfqanıstan, Pakistan, İran, Türkiyə, Balkan ölkələrindən Avropa ittifaqı ölkələrinə (opiatlar – morfin, heroin)

Cənubi Amerikadan Şimali Amerikaya (kokain)

Mərakeş, İspaniyadan Avropaya (çətənə-həşiş, marixuana)

Əfqanıstan, Mərkəzi Asiya, Qafqaz ölkələrindən Avropaya

Cənubi Amerika, Qərbi və Cənubi Afrikadan Avropaya

Myanma, Çindən (Honkonq, Tailand) ABŞ-na

Poçt xidmətləri və kommersiya fəaliyyəti vasitəsi ilə

## *§ 2. Narkotik vasitələrlə bağlı cinayət törətmiş şəxslərin şəxsiyyətlərinin kriminoloji xüsusiyyətləri və bu növ cinayətlərin əsas səbəbləri*

**Narkotik vasitələrlə bağlı cinayət törətmiş şəxslərin tipologiyası:**

↓

təşkilatçılar

↓

istehsalçılar

↓

ekspeditorlar (poçtalyon)

↓

narkotik vasitələrin topdan satışı ilə məşğul olanlar

↓

alıcılar

↓

reklamçılar

↓

mühafizəçilər

↓

xəzinədarlar

↓

narkotik vasitələrin qanunsuz dövriyyəsindən əldə edilən çirkli pulların yuyulması ilə məşğul olan şəxslər

↓

himayədarlar

**Narkotik vasitələrlə bağlı törədilən cinayətlərin əsas səbəbləri:**

iqtisadi sistemli krizis (leqal iqtisadiyyatın kölgəli iqtisadiyyata tranformasiya olunması)

sosial, mənəvi, siyasi sahələrdə tənəzzül

ölkənin coğrafi vəziyyəti

sərhədlərin şəffaflığı

tibbi profilaktikanın həyata keçirilməməsi

ölkə əhalisinin müharibə vəziyyətində olması və s.

## *§ 3. Narkotik vasitələrlə bağlı  cinayətlərin profilaktikası*

**Narkotik vasitələrlə bağlı cinayətlərin profilaktikasına yönəldilmiş tədbirlər:**

↓

narkotik vasitələrin dövriyyəsinə sərt  qadağaların qoyulması istiqamətində həyata keçirilən profilaktik tədbirlər

↓

narkotik vasitələrin leqallaşdırılmasına yönəldilmiş profilaktik xarakterli tədbirlər

↓

narkotik vasitələrin dövriyyəsinə qoyulmuş  sərt qadağalrla onun leqallaşdırılmasına yönəldilmiş profilaktik tədbirlərin uzlaşdırılması.


**Narkotik vasitələrlə bağlı cinayətlərin profilaktikasına yönəldilmiş tədbirlər sisteminin məzmununa görə növləri:**
İnzibati-hüquqi tədbirlər
Cinayət-hüquqi tədbirlər
Tibbi xarakterli tədbirlər
Təşkilati tədbirlər

**Narkotik vasitələrin inkişaf meyllərinin qarşısının alınması məqsədi ilə aşağıdakı profilaktik tədbirlərin həyata keçirilməsi zəruridir:**

↓

Narkotik vasitələrin dövriyyəsi üzərində dövlət monopoliyasının müəyyən edilməsi

↓

Narkotik vasitələrin dövriyyəsi ilə bağlı həyata keçirilən tədbirlərin monitorinqinin keçirilməsi

↓

Narkotik vasitələrlə bağlı cinayətlərin əleyhinə yönəldilmiş uzun müddətli dövlət proqramının həyata keçirilməsi

↓

Narkotik vasitələrin daha geniş yayıldığı regionlarda alternativ inkişaf proqramlarının tətbiq edilməsi

# MÖVZU 14.

## «Residiv cinayətkarlığın növləri və kriminoloji xüsusiyyətləri»

### *§ 1. Residiv cinayətkarlığın növləri*




Residiv cinayətkarlığın növləri :
cinayət-hüquqi residiv (leqal)
kriminoloji residiv
penitensiar residiv

**Residiv cinayətkarlıq aşağıdakı göstəricilərə uyğun təhlil edilir:**

- cinayətlərin növü üzrə
- əvvəlki ilə yeni cinayətin nisbəti üzrə (müxtəlif və yekcins cinayətlərin törədilməsindən asılı olaraq)
- məhkəmluğun sayı üzrə
- törədilmiş cinayətlərin ictimai təhlükəlilik dərəcəsi üzrə
- cinayətlərin residivinin intensivliyi üzrə (yeni cinayətlərin törədilməsi arasındakı müddətdən asılı olaraq).

### *§ 2. Residiv cinayətlərin əsas səbəbləri*

**Residiv cinayətkarlığın inkişafının neqativ meylləri:**

↓

residivin intensivliyinin artması

↓

qadınlar və yetinkilk yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərin sırasında residivin artması

↓

residiv cinayətkarlıqda ixtisaslaşma və bu növ cinayətlərin qrup halında törədilməsi

**Residiv cinayətkarlığın inkişafına təkan verən səbəblər:**

sosial, iqtisadi və mənəvi tənəzzül

sosial nəzarət sisteminin mövcud olmaması

cəza-icra siyasətinin qeyri-təkmil həyata keçirilməsi

cəza çəkmə müəssisələrində cəza çəkənlərin kriminallaşması (kriminal mühitin inkişafı)

cəza çəkmə müəssisələrindən azad olunanların sosial adaptasiyasının həyata keçirilməsi mexanizminin mövcud olmaması

**Residiv cinayətləri törədənlərin tipləri:**

kriminal məqsədyönlü

cəzasız

maniakal

təsadüfi

konformist

qeyri sabit

marginal


Krimiinal peşəkarlıq:
İxtisaslaşma
Kriminal bacarıq və vərdişlər
Dolanışıq mənbəyinin kriminal fəaliyyət olması.
Kriminal əlaqələr (Kriminal mühitlə)
Kriminal submədəniyyət

### *§ 3. Residiv cinayətlərin profilaktikası*

***Residiv cinayətkarlığın profilaktikasının əsas istiqamətləri:***

- HMO arasında qarşılıqlı əlaqənin və informasiya mübadiləsinin yaradılması
- məhkəmə təcrübəsinin və cəza siyasətinin təkmilləşdirilməsi
- cəza çəkmə müəssisəsindən azad olunmuş şəxslərin sosial reabilitasiyası
- cinayətlərin profilaktikası sahəsində hüquqi bazanın yaradılması və s.

## MÖVZU№ 15.

## Mütəşəkkil cinayətkarlığın kriminoloji xüsusiyyətləri və profilaktikası

### *§ 1. Mütəşəkkil cinayətkarlığın anlayışı*

**Mütəşəkkil cinayətkarlıq** – kriminal bizneslə məşğul olan, korrupsiyanın köməyi ilə sosial nəzarətdən müdafiə sisteminə və sabit birliyə malik cinayətkar təşkilatların fəaliyyətidir.



## *§ 2. Mütəşəkkil cinayətkarlığın növləri və səciyyəvi əlamətləri*

***Mütəşəkkil cinayətkarlığın səciyyəvi əlamətləri:***

- Sabit birlik
- Kriminal biznеslə məşğul olmaqla iqtisadi dayaqların yaradılması və maddi mənfəətin əldə edilməsi
- Korrupsiya


***Mütəşəkkil cinayətkarlığın səciyyəvi əlamətləri(ABŞ modeli):***
Uzunmüddətli, total cinayətkar sövdələşmə
Gəlir əldə etmə (kriminal)
Kriminal üsullar
Qanundan mühafizə üsullarının olması

***Mütəşəkkil cinayətkar dəstələrdə təşkilatçılar və icraçılardan başqa aşağıdakı subyektlər də ola bilər:***

- ideoloqlar
- məsləhətçilər
- kəşfiyyat və əks kəşfiyyatla məşğul olan xüsusi qruplar
- müxtəlif vəzifəli şəxslərin pul ilə və ya digər üsullarla (şantaj) ələ alınması üzrə mütəxəssislər
- müxtəlif növ cinayətkar fəaliyyət üzrə mütəxəssislər (killerlər, kompüter texnologiyası, siqnalizasiya qurğuları üzrə mütəxəssislər və s.).

Cinayətkar təşkilatların fəaliyyəti əksər hallarda **kollegial orqan (şura)** tərəfindən idarə edilir.


Mütəşəkkil cinayətkar qruplaşmaların növləri(səviyyəsinə görə):
Sadə
Orta
Yüksək

## *§ 3. Mütəşəkkil cinayətkarlığın profilaktikası*

***Mütəşəkkil cinayətkarlığın ictimai təhlükəliliyi:***

Sosial, iqtisadi, siyasi dayaqları sarsıdır

Transmilli xarakter daşıyır

Cinayətkarlığın təhlükəli növlərinin (nark.vas.,terror,silah alveri və s.) inkişafını stimullaşdırır

Kriminal düşüncə tərzinin inkişafına səbəb olur

HMO-nın fəaliyyətinin effektivliyi aşağı düşür

***Mütəşəkkil cinyətkarlığın profilaktikası tədbirləri:***

Siyasi

Sosial və iqtisadi

Təşkilati

Hüquqi

# MÖVZU № 16.

## «Ehtiyatsızlıqdan törədilən cinayətlərin və ekoloji cinayətlərin kriminoloji xüsusiyyətləri»

### *§ 1. Ehtiyatsızlıqdan törədilən cinayətlərin növləri, əsas səbəbləri və profilaktikası*

**Ehtiyatsızlıqdan törədilən cinayətlərin növləri :**

məişətdə ehtiyatsızlıqdan törədilən cinayətlər

peşəkar fəaliyyətin həyata keçirilməsi nəticəsində ehtiyatsızlıqdan törədilən cinayətlər

idarəçilik funksiyalarının həyata keçirilməsi nəticəsində ehtiyatsızlıqdan törədilən cinayətlər

**Ehtiyatsızlıqdan törədilən cinayətlərin əsas səbəbləri:**

texniki vasitələrin sayının artmasına təkan verən elmi-texniki tərəqqi

sosial-iqtisadi sahədə neqativ mikromühitin yaranması

istehsalatda olan nəzarətsizlik

**Ehtiyatsızlıqdan törədilən cinayətlərin səbəblərinin məzmununa görə təsnifatı :**

↓

Texniki səbəblər (texniki vasitələrin nasazlığı və konstruktiv qüsurları

↓

Təşkilati idarəçilik səbəblər (mütəxəssislərin hazırlığının aşağı olması, onların fəaliyyətinə nəzarət mexanizminin mövcud olmaması, texnoloji rejimin pozulması)

↓

Təşkilati-hüquqi səbəblər (normativ-hüquqi bazanın yaradılmaması)


Ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin tipologiyası:
hazırlıqsız tip
yüngülfikirli tip
psixofizioloji qüsurları olan tip
psixofizioloji vəziyyətində funksional yönəlmələri olan tip

**Ehtiyatsızlıqdan törədilən cinayətlərin profilaktikası istiqamətləri:**

↓

**İnsana təsir üsulları:**

– mütəxəssislərin hazırlıq səviyyəsinin təkmilləşdirilməsi və kadr hazırlığının həyata keçirilməsi;

– sərxoşluğun və narkomaniyanın profilaktikası və s.

↓

**Texniki vasitələrin konstruktiv təhlükəsizliyinin təmin edilməsi:**

– qabaqcıl texnoloji təcrübənin öyrənilməsi;

– texniki vasitələrdən istifadə təcrübəsinin təhlil edilməsi və s.

↓

**Texniki vasitələrin təhlükəsiz istismarını təmin edən profilaktik xarakterli tədbirlər**

## *§ 2. Ekoloji cinayətlərin növləri  və kriminoloji xüsusiyyətləri*

***Ekoloji cinayətlərin motivin xarakterinə görə aşağıdakı növləri vardır:***

tamah motivi ilə törədilən ekoloji cinayətlər

siyasi məqsədlərlə törədilən ekoloji cinayətlər

hərbi məqsədlərlə törədilən ekoloji cinayətlər

ehtiyatsızlıqdan törədilən ekoloji cinayətlər

***Ekoloji cinayətləri törədənlərin tipologiyası:***

epizodik olaraq ekoloji cinayətləri törədən şəxslər

müəyyən peşə fəaliyyəti olaraq ekoloji cinayətləri törədən şəxslər

ayrı-ayrı müəssisələrin rəhbərləri (energetika, istehsalat, transport və s. müəssisələr)

dövlətin vəzifəli şəxsləri

***Ekoloji cinayətlərin profilaktikası istiqamətləri:***

ekoloji cinayətlərin araşdırılması təcrübəsinin təkmilləşdirilməsi

ekoloji  ideologiyanın formalaşdırılması (ekoloji maarifləndirmə)

ekoloji cinayətlərin qarşısının alınması məqsədilə hüquqi bazanın və sosial nəzarət mexanizmlərinin yaradılması

hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə qarşılıqlı əlaqənin və vahid informasiya məkanının yaradılması

# TÖVSİYƏ EDİLƏN ƏDƏBİYYAT SİYAHISI

## I. Normativ-hüquqi aktlar


1. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci il.
2. «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu. 28 oktyabr 1999-cu il.
3. «Polis haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 11 noyabr 1999-cu il.
4. «Cinayətkarlığa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, hüquq qaydalarının və qanunçuluğun möhkəmləndirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 9 avqust 1994-cü il.
5. «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının Qanunu, 28 iyun 2005-ci il.
6. «Uşaq hüquqları haqqında» Azərbaycan Respubli-kasının Qanunu. 28 iyun 2005-ci il.
7. «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu, 13 yanvar 2004-cü il.
8. «Gənclər siyasəti haqqında» Azərbaycan Respublikasının Qanunu, 9 aprel 2002-ci il.
9. «Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu, 31 may 2002-ci il.


## II. Ümumi ədəbiyyat siyahısı


1. F.Y.Səməndərov. Kriminologiya. Dərslik. Ümumi hissə. Bakı, 2003.
2. Ə.Piriyev. «Kriminologiya» Dərslik. Bakı, 1999.
3. А. Алексеев. «Криминология и профилактика преступлений» Dərslik. Москва, 1989.
4. А.Долгова. «Криминология» Дярслик. Москва, 2008.
5. В.Сальников. «Криминология и профилактика преступлений» Dərslik. Санкт-Петербург, 2002.
6. Р.Расулов «Преступность в Азербайджанской Республике». Dərs

vəsaiti. Бакы, 1992.
7. Х.Алекперов. «Преступность и компромисс» Dərs vəsaiti. Бакы, 1999.
8. T.Qarayev «Проблемы борьбы с преступностью в Азербайджанской Республике» Dərs vəsaiti. Бакы, 1992.
9. И.Исмаилов «Преступность и уголовная политика» Dərs vəsaiti. Bakı, 1990.
10. А.Ковалин. «Латентная преступность и ее выявления органами внутренних дел». Dərs vəsaiti. Kiyev, 1985.
11. В.Кудравцев, В.Еминов. «Криминология». Dərslik. Москва, 2004.
12. Б.Бурлаков, Н.Кропачев. «Криминология». Dərslik, Санкт-Петербург,2002.
13. В.Сальников «Криминология и профилактика преступлений» Dərslik, Санкт-Петербург, 2001.
14. А.Долгова. «Криминология» Dərslik. Москва, 2003.
15. С.Иншаков «Криминология» Dərslik. Москва, 2002.
16. К.Игошев. Типология личности преступника и мотивация преступного поведения» Dərs vəsaiti. Горки, 1974.
17. İ.Rəhimov, E.Həsənov, S.Abdullayev, İ.Cavadova. Cinayətkarlıq və kibernetika». Bakı, 1995.
18. Е.Грищко. «Организация преступного сообщества (преступной организации); уголовно-правовые и криминологические аспекты. Dərs vəsaiti. Москва, 2002.
19. А.Долгова. «Организованная преспутность – 4. Dərs vəsaiti. Москва, 1998.
20. В.Иванова. «Преступное насилие» Dərs vəsaiti. Москва, 2002.
21. Ю.Глинский. «Криминология» Dərslik. Санкт-Петербург, 2002.
22. Д.Ривман. «Криминальная виктимология» Dərslik. Санкт-Петербург, 2002.
23. Шнайдер Г.И. «Криминология» Учебник. 2005. Перевод с немецкого. Москва, 1994.

# “KRİMİNOLOGİYA VƏ CİNAYƏTLƏRİN PROFİLAKTİKASI” FƏNNİ ÜZRƏ

# DƏRS VƏSAİTİ
## (sxemlərdə)

Naşir: Ceyhun Əliyev
Texniki redaktor: Ülvi Arif
Dizayner: İradə Əhmədova

---

Yığılmağa verilib: 01.08.2017
Çapa imzalanıb: 14.09.2017
Ofset çap üsulu ilə
Tiraj 200, şərti çap vərəqi 10
Kitab “Ecoprint” nəşriyyat-poliqrafiya
mətbəəsində çap olunmuşdur.
Bakı, Mətbuat pr., 529
Tel: (99412) 538-18-87